# “H.MİRƏLƏMOVUN BƏDİİ NƏSRİ” KİTABININ TƏQDİMATI

Martın 4-də Azərbaycanda Atatürk Mərkəzində filologiya üzrə fəlsəfə doktoru Zalxa Etibar qızı Orucovanın “Hüseynbala Mirələmovun bədii nəsri” (“Apastrof-A”, 2026) monoqrafiyasının təqdimatı oldu. Tədbiri giriş sözü ilə Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov açdı. Zalxa Orucovanın “Hüseynbala Mirələmovun bədii nəsri” kitabından söz açaraq qeyd etdi ki, bədii nəsri kəşf etmək özü xüsusi yaradıcılıq hadisəsidir. Çünki şeir məlumdur ki, ədəbiyyatdır, ancaq nəsri ədəbiyyat hadisəsi kimi tanıtmaq çətindir. Ümumiyyətlə, nəsrlə oxucuları təəccübləndirmək çətindir. Cənubi Azərbaycan ədəbiyyatında nəsr, demək olar ki, yoxdur. Çünki nəsrlə yazmaq asandır, ancaq onu ədəbi əsər səviyyəsində oxuculara tanıdıb-sevdirmək çətindir. Bu baxımdan Hüseynbala Mirələmovun bədii nəsrinin oxucu auditoriyasında özünə böyük sevgi qazanması hamımıza məlumdur. Nizami Cəfərov H.Mirələmovun “Xəcalət”, “Gəlinlik paltarı” və s. bədii əsərlərindən danışıb, bildirdi ki, gətirdi və s. Düzdür, hərdən bir ideologiya üstün gəlir. Ancaq ədəbiyyat - insan məsələsi aparıcı yerdə durmalıdır. Yazıçı H.Mirələmov hazırda da gəncliyə məxsus qələm çalır, onun qələmində gəncliyə xas optimizm var.




nı oxuduğundan danışdı. Müəllifin çox böyük zəhməti bahasına kitabın araya-ərsəyə gəldiyini qeyd etdi, göstərdi ki, kitabla bağlı “Ədəbiyyat qəzeti”ndə, həmçinin Türkiyədə də məqalələr çap olunub.

Ehtiyatda olan polkovnik Hikmət Ağayev çıxışında üzünü Hüseynbala Mirələmova tutub dedi ki, mən bir bacıoğlun kimi səninlə fəxr edirəm. Oğul dayıya oxşar deyiblər. Siz qələminizlə, biz də silahımızla tarix yazdıq.

Hikmət müəllim yazıçı kimi dayısına yaradıcılıq uğurları arzuladı, Zalxa Orucovanı da yeni kitabına görə təbrik etdi.

Daha sonra şair-tədqiqatçı Mübariz Məsimoğlu, AMEA-nın əməkdaşı Leyla Kərimova, texnika elmləri doktoru Qafar müəllim, şairlərdən Arzu Əsəd, Nurəddin Ədiloğlu, Fəxrəddin Teyyub, bu sətirlərin müəllifi olan mən - Şakir Əlifoğlu, kitabın naşiri Akif Dənizizadə, şairə Narıngül və başqaları çıxışlarında kitabın ədəbi-elmi məziyyətlərindən danışıb, yazıçıya və alimə uğurlar arzuladılar.

əsərlərinə dünya şöhrətli yazıçı Çingiz Aytmatov yüksək qiymət verib. Hüseynbala müəllimin ümumilli lider haqda yazdıqları özü ayrıca bir nəsr əsəri kimi xüsusi əhəmiyyət daşıyır. Ümumiyyətlə, H.Mirələmov ayrı-ayrı janrların hər birində kəşfiyyatçı kimi iştirak edir və zənginliklər aşkara çıxarır. Böyük yazıçılar haqqında hər zaman müxtəlif nəsillər yazır. Amma yazıçı da var ki, bizim nəsil, yaşlı nəsil oxuyur, lakin 2-ci nəsil, bizdən sonra gələn nəsillər oxumur. Bu gün Hüseynbala Mirələmov haqda gənc nəslin - yeni nəslin nümayəndəsi olan Zalxa Orucova möhtəşəm bir əsər yazıb və biz də həmin kitabın işığına yığışmışıq.

Kitabın elmi redaktoru və ön söz müəllifi olan professor Elman Quliyev çıxışında gənc ədəbiyyatşünas Zalxa Orucovanın qələmində ərsəyə gələn kitabı yüksək qiymətləndirib, bildirdi ki, bu, müəllifin uzun müddətli əməyinin məhsuludur. Bədii nəsr sahəsində xüsusi yer tuta biləcək bir əsərdir. Həqiqətən də Hüseynbala Mirələmovun yaradıcılığı çox zəngindir. Bu kitab da məhz həmin zəngin yaradıcılığa verilən elmi qiymətin bəhrəsi olaraq araya - ərsəyə gəlib.

Şair-ədəbiyyatşünas Əsəd Cahangir qeyd etdi ki, H.Mirələmov müasir Azərbaycan ədəbiyyatının çox sevilən müəlliflərindəndir. İndi yazıçı çoxdur. Ancaq kimi oxuyurlar? Ancaq insanı narahat edən, düşündürən məsələləri özündə əks etdirən əsərləri oxuyurlar. Cəsarətli yazıçı öz əsərlərində əsl həyatı göstərir və oxucuları da əsərdə göstərilən bu səhvlərdən lazımi nəticələr çıxarırlar. Ədəbiyyatın əsas problem insan amilidir. Düzdür, bəzən dövrün ideologiyası bu amili üstələyir, ədəbiyyat ideoloji məqsədlərə xidmət edir. Ancaq yenə də bütün hallarda ədəbiyyat öz missiyasını qoruyub saxlayır. Misal üçün, vaxtilə S.Vurğun “İnsan” dramını yazdı və birbaşa ədəbiyyata insanı gətirdi. Yazıçı Anar adi asılqanda işləyən qadın obrazını ədəbiyyata

Professor İslam Qəribli: - H.Mirələmov Azərbaycan ədəbiyyatının ən üzdə olan unikal nümayəndəsidir. 1986-cı ildə onun “Tənha durna uçuşu” kitabı çapdan çıxıb. 1990-cı illərdə isə şedevr əsərləri işıq üzü görməyə başladı. O, həm də xeyirxah insandır. Azərbaycan xalqının ümumi mənafeyi naminə xidmət edir. Yeri gəlmişkən, qeyd edim ki, bu günlərdə yazıçının yeni romanı çapdan çıxacaq və orada süni intellektlə bağlı məsələlər əks olunub. Süni intellekt əslində bəşəriyyətin inkişafı yox, bəşəri dəyərləri məhv edir. Əsərdə bu kimi ciddi problemlər qoyulub və bu mənada Hüseynbala müəllim Azərbaycan cəmiyyətinə öyüd verməyə haqqı çatan insandır.

Daha sonra İslam müəllim kitabın rəyçilərindən biri kimi və həm də Zalxa Orucovanın bu mövzuda namizədlik dissertasiyasının opponenti olan bir alim kimi fikirlərini bölüşdü.

Şair Ağacəfər Həsənli çıxışında H.Mirələmovun tarixi mövzuda romanlarında da problemin bədii yolla həllini ortaya qoymasından danışdı, qeyd etdi ki, tarixi roman janrında əsərlər yazmaq təcrübəli yazıçıda çox yüksək peşəkarlıq səviyyəsindədir. Çıxışının sonunda yazıçını da, kitab müəllifi Zalxa Orucovanı da təbrik etdi.

Professor Minəxanım Təkləli bildirdi ki, Hüseynbala Mirələmovun əsərlərində fikir coğrafiyası çox genişdir, bu da onun üz tutduğu mövzuların genişliyilə bağlıdır. Böyük hadisələr olanda, bir də görürsən ki, ədəbiyyat bir müddət susur. Ancaq sonra ədəbiyyat buna mühüm reaksiyalar verir.

H.Mirələmovun “Xəcalət” povesti və başqa əsərləri haqda fikirlərini bölüşən alim sonda qeyd etdi ki, yeni nəslin timsalında Zalxa Orucovanın Hüseynbala müəllim haqqında kitabı yazıçının xoşbəxtliyidir. Müəllifə uğurlar arzulayıb, həm müəllifi, həm də yazıçını təbrik etdi.

Kitabın rəyçilərindən olan professor Yaqub Babayev hələ 2019-cu ildə bu kitabın dissertasiya variantı-

Professor Elman Quliyev qeyd etdi ki, H.Mirələmovun əsərləri 53 dildə tərcümə olunub. 2024-cü ildə Türkiyədə yazıçı ilə görüş keçirildi. Diqqətə çatdırdı ki, hazırda Türkiyədən zəng gəldi ki, aprelin 15-də Türkiyədə yenə yazıçı ilə görüş təşkil olunacaq. Belə bir xoş xəbərin təsiri altında söz yazıçı Hüseynbala Mirələmova verildi.

Hüseynbala müəllim tədbir iştirakçılarına, həmçinin kitabın elmi redaktoruna, müəllifinə, Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərova minnətdarlıq duyğularını çatdırdı.

Daha sonra yazıçı 7 noyabr 1961-ci ildə Lənkəran rayonunun “Leninçi” qəzetində çıxan “Bir tikə çörək” hekayəsi ilə ədəbi aləmə gəldiyini qeyd etdi. Bildirdi ki, ibtidai sinifdə oxuyandan “Azərbaycan pioneri” qəzetində vaxtaşırı yazıları çap olunurdu. Daha sonra yazıçı qəzetin baş redaktoru Əmrah Əmrahovun gedib redaksiyada görüşdüyünü, baş redaktorun redaksiya əməkdaşlarını çağırıb onu qəzetin əməkdaşlarına təqdim etməsi ilə bağlı xoş xatirələrini danışdı. Tələbəlik illərində 5 il qəzetin ədəbiyyat şöbəsində işlədiyini bildirdi. Daha sonra H.Mirələmov bildirdi ki, indi özümü xoşbəxt hiss edirəm. İşim-gücüm oxumaq və yazmaqdır. 2 kitabının nəşriyyatda olduğunu deyən yazıçı “Ruhum, gözlərini yum” əsərinin ideyasından danışdı. Qeyd etdi ki, əsərində süni intellektlə bağlı problem məsələlər bədii həllini tapmışdır.

Sonda kitabın müəllifi fəlsəfə doktoru Zalxa Orucova tədbirin təşkilatçılarına, iştirakçılarına minnətdarlığını çatdırdı. Bildirdi ki, H.Mirələmovun yaradıcılığı nəhəng hadisə olduğu üçün onu bir kitaba sığışdırmaq mümkün deyil. Ona görə də bu istiqamətdə tədqiqatlarını yenə də davam etdiriləcəkdir.

***Şakir ALBALIYEV,***
***filologiya elmləri doktoru,***
***dosent***